## “Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**
“Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY.**

Bakı şəhəri, 15 iyul 1992-ci il.
№ 209.

### “Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında

### ƏSASNAMƏ

1. “Azərbaycanın Milli Qəhrəmanı” adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.
2. “Azərbaycanın Milli Qəhrəmanı” adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir.
3. Azərbaycanın Milli Qəhrəmanına aşağıdakılar təqdim edilir:
xüsusi fərqlənmə nişanı — səkkizguşəli “Qızıl Ulduz” medalı; [1]
“Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi haqqında Fərman.
4. “Azərbaycanın Milli Qəhrəmanı” adı eyni şəxsə bir dəfə verilir.
5. Azərbaycanın Milli Qəhrəmanı qanunvericiliklə müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir.
6. “Qızıl Ulduz” medalı döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda taxılır. [2]
7. “Azərbaycanın Milli Qəhrəmanı” adı almış şəxslər həmin addan yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhrum edilə bilərlər.

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

6 fevral 1998-ci il tarixli 429-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 141**)

### QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 fevral 1998-ci il tarixli 429-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 141**) ilə 3-cü bəndin ikinci abzası yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~xüsusi fərqlənmə nişanı — aypara və səkkizguşəli “Ay-Ulduz” medalı;~~

[2] 6 fevral 1998-ci il tarixli 429-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 141**) ilə 6-cı bənddə “Ay-Ulduz” sözləri “Qızıl Ulduz” sözləri ilə əvəz edilmişdir.